

Aida Eyvazlı

***...Raminin valideynləri Arif Orucovun və Aygün Məmmədlinin yataqxanadakı birotaqlı evinə gəlib, sıxıla-sıxıla başsağlığı verdilər. Ağladılar, kövrəldilər. Sonra da mətləblərini dilə gətirdilər, üzürxahlıq edib dedilər ki, oğlanları Raminin toy dəvətnamələri 2-5 aprel döyüşləri başlamazdan əvvəl paylanıb... Əgər icazə versəydilər, toyu başlayardılar...***

***Modern.az saytı "Aprel şəhidləri" silsiləsindən növbəti yazını təqdim edir.***

**(əvvəli ötən sayımızda)**

# Bir şəhidin dastanı-
# "Tək oğlun ola, biləsən ki, o bir də gəlməyəcək"
## *Vətəni qibləgah edən şəhidlər...*

Bu hadisədən əvvəl isə Şabanovun qurduğu döyüş taktikası ilə ermənin bizdən aldığı 10 kəndi geri qaytarmışdıq, hətta Qafanı da götürmüşdük. Bir də xəbər gəldi ki, bəs ATƏT-in sədri Butros Qali gəlir, aldığı-

Düz 9 ayını saydım. Ondan sonra ömrü qırıldı... İndi bu boş divanı tumarlayıram.

Əsgər Müşfiq Orucovun da ömrü aprel ayının 3-də axşamüstü, Qarabağın Talış kəndi idtiqamətində gedən döyüşlərdə bitdi. Düşmən tərəfin atdığı mərmi qəlpəsindən 3 nəfər şəhid oldu, 6 nəfər yaralandı

***Atası Arif müəllim:***

"Müşfiqin cibindən iki dənə güllə də götürmüşdü komandiri. Döyüşə gedəndə cibinə qoyub ki, birdən erməni əlinə keçərsə, son anda özünü vursun. Müşfiq çox zəhmətkeş oğul idi. Onunla ata-oğul yox, dost-qardaş idim. Elə şərait yaratmışdım ki,özünü həmişə sərbəst hiss etsin, zəhməti sevsin. Universitet tətillə-

Arzularımız, murazımız var idi...".

***Şəhid anası Aygün xanım:***

"Yataqxana divarları çox sıxırdı oğlumu. Ona görə ki, o dostlarını qonaq çağıra bilmirdi. Utanırdı. Bir dəfə uşaqların ürəyi istəyən yeməkləri bişirdim, özümüz çıxıb gəldik qaynanamın bu evinə. O da dostları ilə, həmin o 4 nəfərlə birlikdə qaldı. Hamısı da tərbiyəli, vicdanlı, etibarlı uşaqlar idi. Bir yerə yığışanda dərs oxuyar, özlərinə yeni iş planları cızardılar. İndi də gəlib yoluxurlar bizi. Tək qoymurlar. Ancaq Müşfiqin yeri görünür. Oğlumun 1 metr 82 sm boyuna baxıb fərəhlənirdim. İndi evin hər yerində əllərinin izi, nəfəsi var balamın. Çox çətindir. Dözə bilmirəm, deyir".

Biz Müşfiqli xatirələri çözə-





...yərkən, ... nənə qəhərdən gözlərinin yaşını tökdü. Söhbətimin sonunda yenə soruşdum ki, - bibi, bəlkə bir sözün var deməyə?! - Cavabı belə oldu:

***- Müşfiq yataqxanada külfət içində böyüdü. Pis günü də oldu, yaxşı günü də oldu, ancaq özünün sındırmadı. Pensiyamdan həmişə ona ayırıb xərclik***

**Gecə gündüz ağlayıram**
**...**
**Ürəyimi çalın-çarpaz dağlaram**
**Talış düzü de Müşfiqi neylədin?".**

Müşfiqə doğma olan hər kəsi dinlədim, danışdırdım, ancaq kənarda oturan bacısı Günel danışmadı ki, danışmadı.Keçən il aprel ayının 29-da Günelin toyunda oynamışdı qardaşı. İndi isə Günel boynu bükülü oturmuşdu. Üzündə, sifət cizgilərin-

...rəm ki, elə bilərlər ki, yalandan deyirəm. Amma, mən bilirəm axı , sən hamıdan yaxşı idin.

***Biz bir-birimiz çox istəyirdik, heç dalaşmırdıq da. Ancaq bunu büruzə vermirdik. Yuxumda gördüm ki, gəlmisən... Elə sevinirdim ki, qardaşım əsgərlikdən qayıdıb, özü də birinci mənim yanıma gəlib... Sonra ayıldım... Sən demə yuxu imiş.***